*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 360-367*

https://doi.org/10.62837/2025.4.360

**SEVDA MƏHƏMMƏD QIZI VƏLİYEVA**
**Bakı Avrasiya Universiteti, magistr**
**e-mail: sevdav990@gmail.com**
**ORCID ID: https://orcid.org/0009-0007-1136-1185**

# SABİR ƏHMƏDLİNİN "AXİRƏT SEVDASI" ROMANINDA AXİRƏT

**Annotasiya**

"Axirət sevdası" romanı xalq yazıçısı Sabir Əhmədlinin ömrünün son illərində qələmə aldığı romanlarından biridir. Məqalədə göstərilir ki, Sabir Əhmədli müstəqilliyin verdiyi imkanlar çərçivəsində "Qarabağ" müharibəsinin şərtləndirdiyi zaman içində mistik bir mövzuya müraciət etmiş, ictimai şüurun növlərindən biri olan dini dünyagrüşün probleminə həsr olunmuş bir roman qələmə almışdır. Romanın əsas mövzusu şəhidlərimizin gedəcəyi yer olan sonuncu mənzil Axirət dünyası romanın əsas mövzusudur. Romanda müəllif axirət dərk etməyə çalışmaqla yanaşı onun mahiyyətini, insanların həyatında, mənəvi aləmdə oynadığı rolu əsaslandırmağa çalışmış və bu mövzunu bədii sənət səviyyəsinə qədər yüksəltməyi bacarmışdır.

**Açar söz: axirət, Axirət sevdası, müstəqillik, roman, şəhid ruhu**

## Giriş

Xalq yazıçısı Sabir Əhmədli ədəbi fiqur kimi xoşbəxt yazıçılardandır. O, təqribən yaradıcılığının qırx illik bir dövrünü sovet cəmiyyətində qələmə alsa da, təqribən iyirmi ilini də müstəqillik dövrünə sərf etdi. Müstəqillik dövrü isə artıq başqa bir dövrdür. Onun istər ictimai-siyasi məzmunu, istər məişət zəmini və istərsə də müstəqillik dövrünün insanının cizgiləri, sovet dövrü insanından, cəmiyyətindən, məişətindən əsaslı surətdə fərqlənir. İlk baxışda adi insan bəlkə də bunları duymur, çünki xalq həmin xalq, milli dəyərlər də, əsasən, təqribən həmin dəyərlərdir. Lakin əslində istər cəmiyyət, istərsə də Azərbaycan insanı özü də hiss etmədən köklü şəkildə dəyişmiş, istər zaman, istər şəxsiyyət baxımından sovet insanından fərqlənmişdir. Sabir Əhmədli isə bir yazıçı kimi bu prosesi duymuş, müşahidə etmiş və ömrünün son illərində, müstəqillik dövründə qələmə aldığı "Axirət sevdası", "Kef", "Ömür urası", "Kütlə" və başqa əsərlərində bu prosesi olduqca real şəkildə, bütün çılpaqlığı ilə qələmə almışdır. Tənqidçi Elnarə Akimova yazır: "*Sabir Əhmədli bu dövrdə xalqımızın üzləşdiyi bəlaları nəsrə gətirən və bunu epik panaram təsvirləri ilə canlandıran nadir yazıçılardandır. Təsadüfi deyildir ki, bu illərdə yazıçının yaratdığı bütün əsərlər, onların mövzusu və əhatə dairəsi çağın diktə etdiyi reallıqlara adekvat olaraq yazılır. "Kütlə", "Yanvar hekayələri", "Axirət sevdası", "Kef", "Ömür urası" və ölümündən sonra çap olunan "Yazılmayan yazı" əsərləri Sabir Əhmədlinin bir yazıçı kimi ölkədə yaşanan situasiyalara həssas yazıçı*

*baxışıdır. Meydan prosesləri, milli azadlıq hərəkatı, 20 Yanvar faciəsi, Qarabağ münaqişəsi, erməni təcavüzü, Sumqayıt hadisələri, qaçqınlıq problemi, yurd həsrəti motivləri və başqa bu kimi müharibənin ardınca gətirdiyi bəlalar çeşidi yazıçının əsərlərindən başlıca xətt olaraq keçir."* (1, s. 4)

**Sabir Əhmədlinin "Axirət sevdası" romanında şəhidlik ideyasının bədii təcəssümü**

Dediyimiz kimi, müstəqillik dövrü başqa dövrdür və ötən dövrdən mahiyyət etibari ilə fərqlənir. Belə ki, müstəqillik dövründə Azərbaycan cəmiyyəti artıq başqa xüsusiyyətlər kəsb etdi. Cünki müstəqillik Azərbaycana dinclik və əmin-amanlıqla gəlmədi. Müharibə, qaçqınlıq, köçgünlük, aclıq, səfalət, qan-qada ilə gəldi. İctimai-siyasi vəziyyət dəyişdi və bu, həyatın bütün sahələrinə təsir etdiyi kimi, elmə, mədəniyyətə, etik-estetik dəyərlərə də təsirsiz ötüşmədi. Beləliklə, insan dəyişdi və ətrafını dəyişməyə başladı: hər şey dəyişdi - yeyib-içməkdən, geyim-keçimdən, maşından tutmuş şəhərə, binalara qədər. Təbii ki, ilk növbədə dəyişən və bilavasitə cəmiyyətə, zamana, zamanın yetişdirdiyi insana təsirsiz ötüşməyən ictimai şüur oldu. Xüsusilə, ictimai şüurun din anlayışı.

Məlumdur ki, Azərbaycan xalqı ən qədim zamanlardan müxtəlif dini inanclara tapınmış və bütün əsrlər boyu demək olar ki, öz tapındığı əqidəyə, islam dininə həmişə saf, təmiz, tolerant münasibət bəsləmişdir. Bu, əsrlər boyu belə olmuş, Azərbaycan xalqının əsrlər boyu heç bir digər dinin nümayəndəsi ilə konflikti olmamış, Azərbaycan vətəndaşı həmişə Allahına tapınmaqla bərabər, müxtəlif dini ayinləri, dini öhdəlikləri ləyaqətlə, vicdanla yerinə yetirmişdir. Din anlayışı hətta, bütün orta əsrlər Şərq, o cümlədən Azərbaycan poeziyasından qırmızı bir xətt kimi keçməklə bərabər, eyni zamanda, Azərbaycan insanının ideoloji dünyagörüşündən də əsas bir xətt kimi keçmiş və Azərbaycan insanı cəmiyyətdə yaşayarkən meyar tutduğu digər mənəvi dəyərlərlə yanaşı, ilk növbədə dini ideologiyaya söykənmiş, cəmiyyəti, onun problemlərini dinin verdiyi qayda-qanunlar, yasaqlar, icazələr prizmasından qəbul etmişdir. Ona görə də din Azərbaycan vətəndaşının həyatında həmişə mühüm rol oynamış və Azərbaycan vətəndaşı ilk növbədə bu meyardan çıxış edərək, cəmiyyətə, dünyaya, reallığa, gələcəyə qiymət vermişdir. Sadəcə olaraq, dinin Azərbaycanda mövcud olduğu təqribən 1300 il ərzində 70 illik sovet dövründə dini ideologiya, dini dünyagörüş bir qədər zəifləmiş və arxa plana keçmişdir. Əslində sovet ideologiyası nə qədər çalışsa da, dini inancları, Allah eşqini, peyğəmbər sevdasını, imam məhəbbətini insanların ürəyindən çıxara bilməmiş, sadəcə olaraq, bir qədər zəiflətmişdir. Lakin bütün bunlara baxmayaraq, xalq elə sovet dövründə də dini inamını, imanını qorumuş, öz dini təfəkkürünə xəyanət etməmişdir. Lakin, müstəqillik dövründə dinin cəmiyyətdəki rolu yenidən artmış, insanlar yenidən öz dini əqidələrinə, dini düşüncələrinə daha möhkəm bağlanmışlar. Doğrudur, bu prosesdə bəzən neqativ amillər, məsələn, müstəqilliyin verdiyi şərait nəticəsində Azərbaycana gələn, ayaq açan müxtəlif sektalar, cərəyanlar, məktəblər, təhsil

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 360-367*

ocaqları müəyyən rol oynasalar da, amma əslində müstəqillik dövründə Azərbaycanda dini düşüncənin yenidən baş qaldırmasında və insanların yenidən heç bir təsirə uymadan, məruz qalmadan və yenidən illər boyu sürdürüb gələn saf dini duyğularına sarılmalarında sözsüz ki, ilk növbədə Azərbaycanda baş verən və təqribən 30 il müddətində davam edən, Azərbaycanın 40 minə yaxın cavanının, gəncinin həyatına son qoyan Qarabağ müharibəsi oldu. Təbii ki, Qarabağ müharibəsində təkcə şəhid olan şəhidimizin sayı 40 mindir. Əgər onların bütün ailə üzvlərini də hesab etsək, onların da nə şəkildəsə ziyan çəkdiklərini, hansı mənəvi-psixoloji sarsıntılar keçirtdiklərini nəzərə alsaq, onda müharibədən ziyan görmüş faktiki zərərçəkənlərin siyahısı milyonları ötmüş olar. Amma, təbii ki, bu statistika da həqiqəti əks etdirmir. Çünki bu müharibədən bütövlükdə Azərbaycan xalqı ziyan çəkmiş, zərər görmüş, bu ədalətsiz müharibəyə, tökülən qan-qadaya görə insanlara, beynəlxalq təşkilatlara, hərbi qüvvələrə sığındığı kimi, ilk növbədə Allah-Talaya da sığınmış, dini düşüncələrə dalmış, bütün yardımlarla bərabər, ilk növbədə əsas yardımı, əsas qayğını ulu yaradandan, Allah-Taaladan almaq istəmiş, bütövlükdə bu müharibənin mahiyyətini anlamağa çalışmış, şəhidlərin ruhu daima onları düşündürmüş, onlar haqqında hərə öz səviyyəsinə, düşüncəsinə, öz savadına görə müxtəlif mülahizələrə yer vermişlər. Və bu da istər-istəməz cəmiyyətdə dinin rolunu artırmış, hətta sovet dövründə bəzən qatı ateist olanlar belə, dini sentimentalizmə yuvarlanmışlar. Beləliklə, müstəqilliyin Azərbaycana ilk ayaq açdığı günlərdən etibarən, din cəmiyyətin həyatında mühüm rol oynamışdır. Və bu da istər-istəməz Azərbaycanın müstəqilliyinin ilk dövrlərində zamanı şərtləndirən, zamanın meydana çıxan ən mühüm xüsusiyyətlərdəndir ki, elə müstəqilliyimizin ilk illərində də xalq yazıçısı Sabir Əhmədli tərəfindən qələmə alınan "Axirət sevdası" romanında ədəbi müstəviyə çıxarılan istiqamətlərdən biri olmuşdur. "*Sabir Əhmədlinin 90-cı illər yaradıcılığı... onun milli azadlıq hərəkatına, Qarabağ münaqişəsinə, metafizik başlanğıca müraciəti ilə dolğunluq qazandı, dəyişən zaman və mühit kontekstində qəhrəmanın həyata, cəmiyyətə ümumbəşəri dəyərlər prizmasından yanaşması dunyadərk məqamı kimi mənalandı. Varlıq və yoxluq hüdudunda hərəkətə gələn ruhun ucalıq səviyyəsi nəsrimizin yeni estetik dəyər və ümumbəşəri kəsb etməsinə yol açdı"* (2, s. 23)

"Axirət sevdası" romanı oğlu Qarabağda, müharibədə şəhid olmuş bir atanın düşüncələridir. Məsələ burasındadır ki, bu düşüncələr atanın cəmiyyətin, yaşadığımız reallıqların problemlərini dərk etməyə çalışmaqla yanaşı, şəhidliyi, şəhid ruhunu, axirəti dərk etmək istəyini təsvir edir. Elnarə Akimova yazır: "*... Axirət sevdası" əsərinin əsas leytmotivini təşkil edən fanilik və əbədiyyət haqqında düşüncələr heç nahaq deyil. Vaqif Yusifli yazır: "Sabir Əhmədlinin "Axirət sevdası" romanı bu ata dərdini əbədiləşdirən bir əsər kimi yarandı. Bu roman "Ata ağrısı" da adlana bilərdi. İlk dəfə idi Azərbaycan bədii nəsrində Yazıçı – Atanın oğul itkisindən doğan dağ boyda dərdi ilə üzləşirdik".* (1, s. 5) Romandan nəticə etibarilə belə aydınlaşır ki,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.360-367*

bütün bu acını-ağrını ürəyindən, cismindən, varlığından keçirən atanın axirəti dərk, qəbul etmək məcburiyyətindən başqa çarəsi qalmır. Bu ağrı, bu acı əslində elə bir dərddir ki, insan ancaq axirəti dərk etdikdən sonra, onun varlığına ruhən, qəlbən, həqiqətən inandıqdan sonra, hardasa müəyyən mənada rahatlıq, dinclik tapa bilər. Yoxsa, dinclik yoxdur. Məsələ burasındadır ki, bu amansız düşüncə, bu dərdlə yaşayan insanın son nəfəsi ağzından çıxana qədər onu izləyir. Buna görə də atanı ölüm düşündürür. Elnarə Akimova yazır: *"Axirət sevdası" və "Ömür urası"nda tale, ölüm, ruhun fəlsəfəsi, fanilik və əbədiyyət haqqındakı düşüncələr aparıcıdır. İtirdiyi torpağı ilə bağlı narahatlığını yanıqlı bir dillə qələmə alan yazıçı qəfil intonasiyanı, ritmi dəyişir və hadisələrin obyektivi müəllifin mənəvi yaşantılarının dərin qatına fokuslanır: " Məni ölüm düşündürür"! Bundan sonra daha çox fəlsəfi mündəricə önə keçir. Bu fəlsəfi düşüncə ilə yüklənmiş obraz yazıçının özüdür. Sabir Əhmədlinin yazıçı, vətəndaş, ata kimi duyğularını danışdırdığı əsərdir "Axirət sevdası". Roman boyu qəhrəmanın özünün daxili nitqi, şüur axını, irəli-geri zaman dönümlərinə sıçrayışları, oğlu Məhəmmədin itgisi ilə bağlı yaşadığı dərin psixoloji hissi sarsıntıları o qədər dərin işlənir ki, oxucu yazıçının şəxsi kədər və iztirabının fonunda bütöv vətənin yaralarını, portretini görür".* (1, s. 5) Sabir Əhmədli romanın ilk səhifələrində yazır:

*" MƏNİ ÖLÜM DÜŞÜNDÜRÜR...*

*- Malik müəllim ! Dünya, varlıq, aləmlər barədə YENİ BİR BAXIŞA ehtiyac duyulur. Müsəlmanların ömür və Axirət kitabı Quran mənə keçmiş mərhələ, köhnəlmiş təki görünür. Məhəmməd Peyğəmbər dərin düşüncə, yüksək ağıl yiyəsi olsa da, indiki gözlə baxdıqda "ilahi vəhylər" bəsitdir..."* (3, s. 6-7) Həqiqətən də, oğlu şəhid olan ataya, ölümü düşünən ataya vəhylər bəsit görünə bilər. Cünki vəhylər nə qədər də müqəddəs olursa-olsun, yenə də şəhidin bu dünyadakı varlığını əvəz edə bilmir. Atanı, nə qədər qəribə görünsə də, ancaq axirətin real varlığının dərki ovundura bilər. Ona görə də ata sonsuz bir maraqla, yanğıyla axirətin dərkinin axtarışındadır. *"Etiraf etmək xoşdur ki, bu gün bizim ən yaxşı əsərlərimizdə bədii surətləri, onların çoxcəhətli ictimai əlaqələri daxilində, ilk növbədə bir fərd kimi, mühiti, insanları, dünyamızı beynində və qəlbində yerləşdirmiş bir bəşər övladı kimi götürüb təhlil etmək aparıcı yer tutur."* (5, s. 85) Ata bəzən ən çətin sualların cavabını romanın digər qəhrəmanı, romanda ərəb dili müəllimi kimi təsvir olunan Malik müəllimdən almaq istəyir. Və bu mənada bəzən Malik müəllimə elə suallar verir ki, hətta ən savadlı din xadimləri belə bu sallara cavab verə bilmirlər. Ata isə sadəlöhvcəsinə hər ərəb dili müəlliminin bütün dini məsələləri də bildiyini güman etdiyindən, Malik müəllimi sual atəşinə tutaraq bəzən onu çətin vəziyyətdə qoyur. *"Psixoloji varlıq olan insanın içi, içəri dünyası şifahi məzmundan (sosial əhatədən) tutmuş, mənəvi-əxlaqi dəyərlərə, fəlsəfi sıraya (insan-varlıq, insan-dünya münasibətlərinə) qədər ən müxtəlif səviyyələrdə gəzişir, "öz həqiqətinə" yetməyə can atır."* (4, s. 288)

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 360-367*

**Sabir Əhmədlinin Axirət Sevdası Romanında atanın axirət axtarışı və Şəhidlik İdeyası**

Maraqlıdır ki, hətta müəyyən mənada Quran da atanın bütün suallarına cavab vermir, onu təmin etmir. Yoxluqda oğlunu axtaran ata daha dərin qatlara enir: Ata ruha tapınmaq, sığınmaq istəyir. Başqa sözlə desək, ata oğlunun ölmədiyini, sadəcə olaraq başqa varlığa, ruha çevrildiyini qəbul etmək istəyir: yəni o yoxdur, doğrudur, fiziki cəhətdən yoxdur, amma ölməyib də, o, ruhdur, mövcuddur. Ata bu düşüncələrlə özünə təsəlli vermək istəyir. Ata istəyir ki, cənnəti, cəhənnəmi araşdırsın. Bu dünyadan gənc, nakam gedən oğlu heç olmasa o dünyada, cənnətdə xoşbəxtlik tapsın. O, buna əmin olmaq istəyir. Axı şəhidlərin yeri cənnətdir. Bu məqsədlə ata cənnətin təsvirini də gözlərinin qabağına gətirmək istəyir. Ata oğlunun getdiyi son mənzili detallarına qədər bilməyə, dərk etməyə, gözləri qarşısında canlandırmağa çalışır. Ona görə də ata bəzən bu dünyaya, özünün də yaşadığı dünyaya asi çıxir, onun ancaq zövqü səfadan başqa bir şey olmadığını söyləyir. Təki o biri dünya, cənnət, oğlunun getdiyi son mənzil, əbədi dünya gözəl olsun, qəşəng olsun.

Oğlunun yoxluğu atanı dünyaya, insanlara, hətta doğmalara qarşı belə adiləşdirir. Ata üçün dünyanın, doğmaların belə oğulsuz mənası yoxdur. Lakin atanın bir təsəllisi var. Gec-tez o da oğlunun gedəcəyi yerə gedəcək və onlar mütləq görüşəcəklər: *"Mən getməliyəm. Söz vermişəm. Məni oğlum gözləyir."* (3, s. 6-7) Bu mənada heç də təsadüfi deyil ki, ruha, şəhid ruhuna inanan Sabir Əhmədlinin Sovet İttifaqı Qəhrəmanı olan qardaşı Cəmil Əhmədovdan bəhs edən digər bir kitabının adı "Biz yenə görüşəcəyik" adlanır.

Romanda axirətin sevdalısına çevrilən, onu araşdıran, onu duyan, gələcəkdə axirətdə oğlu ilə mütləq şəkildə görüşəcəyinə inanan ata, bəzən zamanı qabaqlayaraq elə evlərindəcə xəyalən oğlu ilə görüşür, zamanı qabaqlayır, zamanı sındırır. Təbii ki, bu düşüncələr romanın ən ağır səhifələri, ən hüzünlü sətirləridir. Amma bütün bunlara baxmayaraq, roman bütövlükdə bədii bir əsərdir. Heç də təkcə oğlu şəhid olmuş atanın o dünya, axirət, ruhlar haqqında düşüncələrindən ibarət deyildir. Bu mənada, Sabir Əhmədli bir yazıçı kimi axirət haqqında düşüncələrini, şəhidlik haqqında fikirlərini, şəhidlik müsibətini nə qədər ustalıqla, böyük sənətkarlıqla qələmə alsa da, amma qələmə aldığı əsərə bir yazıçı mövqeyindən yanaşmış, təkcə bir atanın təəssüratı kimi münasibət bildirməmişdir. *"60-cı illər həyatının insanı daha çox konkret əməl və qayə adamı kimi göstərilməsini tələb edirdi. O, gah kənd, gah şəhər, məhəllə insanı olur, ggah da cəmiyyət insanı olaraq bir bucaqdan, bir prizmadan təsvirə götürülürdülər. Yeni dəbiyyat zahiri effektlikdən qaçaraq, insanın "iç" dünyasına onun psixologgiya və mənəviyyatına doğru tuşlanırdı. Elə bu səbəbdəndir ki, 60-cı illərdən sonra təzahür edən insan surətləri, qəhrəmanlar daha çox qəlb, mənəviyyat adamları kimi obrazlaşdırılırdı."* (5, s. 175) Hər halda əsərin baş qəhrəmanı olan ata romandan göründüyü kimi nə qədər axirəti, o biri dünyanı,

ruhlar aləmini araşdırsa da, hər halda özü də canlı bir insandır. Xüsusilə, elə bir insandır ki, ömrünün böyük bir hissəsini sovet dövründə, sovet cəmiyyətində, ateizm şəraitində, dövlətin rəsmi şəkildə elan etdiyi dinsizlik çərçivələrində başa vurmuşdur. Bu mənada, o, müstəqilliyin verdiyi imkanlar çərçivəsində nə qədər dini hisslərə qapılsa da, hər halda onun fikirlərində o dünya haqqında, axirət haqqında düşüncələrində bir inamsızlıq, hətta belə demək mümkünsə, yüngül bir istehza da hiss olunur. Hər halda ata ruhlar aləminə nə qədər mistik bir varlıq kimi inanmağa çalışsa da, dini ədəbiyyatın, dini məfhumların verdiyi məlumatlara əsasən o biri dünyanın real atributları hesab etdiyi cənnətin nemətlərindən sayılan bildirçin qovurmasına, qüdrət halvasına, yumurtaya bənzər gözəllərə bir qədər ironik münasibət bildirir. Bütün bunlar həqiqətən də "Axirət sevdası" əsərinə bir roman xüsusiyyətləri, roman cizgiləri verməkdədir. Çünki roman həqiqətən də, şəxsi təəssüratlardan, şəxsi düşüncələrdən fərqlənməli, təkcə bir şəxsin deyil, bir müəllifin deyil, cəmiyyətin qoyulan problem haqqında ümumi nəticəsi kimi meydana çıxmalıdır. Bu baxımdan, Sabir Əhmədli, həqiqətən də, bir roman ustası kimi xırda cizgilərlə də olsa qaldırdığı problemi ustalıqla romana çevirə bilmiş və axirət haqqında bütün cəmiyyətin, o cümlədən, demək olar ki, bütün şəhidlərin əzizlərinin düşüncələrini ifadə etməyi bacarmışdır.

**Nəticə**

"Axirət sevdası"nda müəllifi axirətin düşündürdüyü məqam zaman baxımından nə qədər maraqlı olsa da, müstəqilliyimizin ilk dövrlərində dini azadlığın insanlara verdiyi demokratik düşüncə tərzi də romandan bir xətt kimi keçir. Əgər yetmiş illik sovet dövründə dini düşüncə hardasa bir qədər qapalı şəkildə, məhdud formada, müxtəlif tərəddüdlərlə müşayiət olunurdusa, artıq müstəqillik dövründə demokratiyanın verdiyi imkanlar çərçivəsində cəmiyyətin müxtəlif qatlarına mənsub olan insanlar çəkinmədən, dərin, hətta alimlərin, ilahiyyatçıların özlərinin belə bəzən baş çıxartmadıqları, çaşıb qaldıqları mövzulara qorxmadan girişir, onları aydınlaşdırmağa, təhlil etməyə çalışırlar. Bu mənada, "Axirət sevdası" romanında axirəti düşünən kişi ilə axirəti izah etməyə çalışan müəllim arasında dialoqlar, diskussiyalar, təhlillər olduqca maraqlıdır. Axirəti düşünmək ümumiyyətlə, nə qədər ağır, həzin bir hiss olsa da, müəllif hər halda bu zamana enmək istəyir, onun mahiyyəti, ən əsası isə zamanı haqqında bilgilər alıb, onu öz təfəkküründən keçirib oxuculara çatdırmaq istəyir. Həqiqətən də çətin məqamdır. Axirət haqqında onsuz da biliklərin az olması, bəzən müəllimlə əsərin qəhrəmanı arasında anlaşılmazlıqların baş verməsinə də səbəb olur. Lakin bütövlükdə problemin qoyuluşu, müəllifin axirəti dərk etmək istəyi romanın əsas aparıcı xəttinə çevrilərək, onun məzmununu, mahiyyətini şərtləndirir. Və bütün roman şərtlərilə bərabər qələmə alındığı dövrün, zamanın əsas probleminə çevrilən axirət məsələsi bəlkə də müstəqillik dövrü ədəbiyyatımızda qoyulan ən uğurlu və cəmiyyətin mənəvi tələbatını ödəməyə yönələn əsas ideyalardan biridir. Çünki təqribən 20-30 min şəhid verdiyimiz Qarabağ

müharibəsi bu mövzunu aktuallaşdırır və cəmiyyətimizin əsas suallarından birinə çevrilirdi. Bu mənada, ilahiyyat elmimizin izah etməkdə çətinlik çəkdiyi bir məsələni Sabir Əhmədli bir yazıçı kimi dərindən duyur, cəmiyyət üçün lazımlı olduğunu bilib, onu bədii şəkildə həll etməyə çalışırdı.

**Ədəbiyyat siyahısı**

1. Akimova, E. (2020, İyul 11). Ömrün urasında yaşanan və yazılanlar. *Ədəbiyyat qəzeti* s. 4-5
2. Akimova, E. (2020, İyul 4). Sabir Əhmədli – iki epoxanın yazarı. *Ədəbiyyat qəzeti* s. 23
3. Əhmədli, S. (2003). *Axirət sevdası*. Bakı: Ozan
4. Əlişanoğlu, T. (2006). *XX əsr Azərbaycan nəsrinin poetikası*. Bakı: Elm.
5. Əzimova, T., & Babayeva, M. (2017). *Azərbaycan ədəbiyyatı tarixi: Müasir dövr* (Dərs vəsaiti). Bakı: ADPU Nəşriyyatı
6. Nəbiyev, B. (1987). *Roman və müasir qəhrəman*. Bakı: Yazıçı

**SEVDA MAHAMMAD QIZI VALIYEVA**
**Baku Eurasian University, Master's Student**
**e-mail: sevdav990@gmail.com**
**ORCID ID: https://orcid.org/0009-0007-1136-1185**

## THE CONSEPT OF THE AFTERLIFE IN SABIR AHMADLI'S NOVEL "AXIRAT SEVDASI"

**Abstract.** The novel Longing for the Afterlife is among the works authored by People's Writer Sabir Ahmadli during the final years of his creative activity. The article emphasizes that, taking advantage of the opportunities presented by independence, Sabir Ahmadli turned to a mystical theme shaped by the realities of the Karabakh war and composed a novel dedicated to the exploration of religious worldview as a form of social consciousness. The principal theme of the novel is the afterlife — the ultimate abode of fallen martyrs. The author seeks not only to comprehend the notion of the afterlife but also to substantiate its essence and its role in human existence and spiritual life, elevating the subject to the level of high artistic interpretation.

**Keywords: afterlife, *Axirət Sevdası*, independence, novel, martyr's soul**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.360-367*

**СЕВДА МАМАД КЫЗЫ ВАЛИЕВА**
**Бакинский Евразийский университет, магистрант**
**e-mail: sevdav990@gmail.com**
**ORCID ID: https://orcid.org/0009-0007-1136-1185**

## В РОМАНЕ САБИРА АХМЕДЛИ "АХИРАТ СЕВДАСЫ" ПОНЯТИЕ ЗАГРОБНАЯ ЖИЗНЬ

**Резюме.** Роман «Стремление к загробной жизни» является одним из произведений, созданных народным писателем Сабиром Ахмедли в последние годы его творчества. В статье подчеркивается, что, воспользовавшись возможностями, открывшимися в условиях независимости, Сабир Ахмедли обратился к мистической тематике, определяемой реалиями Карабахской войны, и написал роман, посвящённый исследованию религиозного мировоззрения как одной из форм общественного сознания. Основной темой произведения является мир загробной жизни — последнее пристанище павших мучеников. Автор стремится не только осмыслить концепцию загробного существования, но и обосновать его сущность и роль в духовной жизни человека, поднимая данный вопрос до уровня высокохудожественного осмысления.

**Ключевые слова: загробная жизнь, *Axirət Sevdası*, независимость, роман, душа шахида**

**Rəyçi: professor Tərlan Quliyev**